“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının İqtisadiyyat Nazirliyi tərəfindən icrası üzrə 2016-cı il üçün iş planı”nda nəzərdə tutulmuş tapşırıqların icra vəziyyəti barədə məlumat

| № | Tədbirin adı | Nazirlik tərəfindən 2016-cı ildə görülmüş işlər |
|---|---|---|
| 1. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı”nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və "Elektron hökumət" portalına yeni xidmətlərin inteqrasiya edilməsi (1.1) | İqtisadiyyat Nazirliyinin funksional fəaliyyət istiqamətləri üzrə dövlət xidmətlərinin dövrün tələblərinə uyğun daha təkmil və modern təşkili, informasiya sistemlərinin inteqrasiyası sahəsində həyata keçiriləcək əsas istiqamətlərin müəyyən olunması, bəzi xidmətlərin qeyri-elektron təqdim olunmasından imtina edilərək, yalnız elektron təqdim olunması, bununla da xidmətlərin təşkil olunmasına sərf olunan maliyyə vəsaitinə və vaxta qənaət edilməsi, eyni zamanda bu istiqamətdə vətəndaş məmnunluğuna nail olunması Nazirliyin əsas prioritet istiqamətlərindəndir.<br>Nazirlik tərəfindən göstərilən elektron xidmətlərin daha da təkmilləşdirilməsi və modernləşdirilməsi, Nazirliyin fəaliyyət istiqamətləri üzrə göstərilən yeni dövlət xidmətlərinin elektronlaşdırılması və elektron xidmətlərin tətbiqi ilə əlaqədar tələb olunan rəsmi sənədlərin sayının azaldılması istiqamətində 2016-cı ildə mühüm işlər görülərək, mövcud dövlət xidmətlərinin elektronlaşdırılması, təkmilləşdirilməsi, tam avtomatlaşdırılması və yeni elektron xidmətlərin yaradılması istiqamətində vacib və zəruri addımlar atılmışdır. Hesabat dövründə 5 yeni elektron xidmət Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.11. tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı"na əlavə edilmiş, bundan əlavə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununa əsasən 2 elektron xidmət ləğv edilmişdir. Eyni zamanda, elektron xidmətlərin sayının artırılması istiqamətində zəruri inzibati-texniki və hüquqi işlər görülmüş və növbəti il üçün 50-ə yaxın yeni elektron xidmətin fəaliyyətə başlaması və elektron hökumət portalına inteqrasiya edilməsi üçün müvafiq prosesual tədbirlər görülmüşdür.<br>Bundan əlavə, bütün lisenziya və icazələrin verilməsinin elektron qaydada həyata keçirilməsi istiqamətində hesabat dövrü ərzində müvafiq işlər həyata keçirilərək, Azərbaycan Respublikası |

| | | |
|---|---|---|
| | | Prezidentinin "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" 31.08.15. tarixli 588 nömrəli Fərmanının 2-ci və "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21.12.15. tarixli 713 nömrəli Fərmanının 8-ci hissələrinin icrasını təmin etmək məqsədilə "Lisenziyalar və icazələr" portalının Əsasnaməsinin və onun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanının layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Portalın fəaliyyətə başlaması nəticəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin verilməsi tamamilə elektron qaydada həyata keçiriləcək, bununla bağlı müraciətlərin təqdim edilməsi, qəbulu, nəticələrinin rəsmiləşdirilməsi daha da şəffaf, rahat, səmərəli və operativ şəkildə təmin ediləcək, tələb edilən vaxtın və maliyyə xərclərinin optimallaşdırılması, dövlət orqanlarının informasiya sistemlərinin uzlaşdırılması və qarşılıqlı əlaqəsinin təmin edilməsi mümkün olacaqdır. |
| 2. | "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi (1.3.) | İctimaiyyətin maarifləndirilməsi məqsədilə Nazirlik tərəfindən Bakıda və regionlarında keçirilən treninqlər çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər və bu xidmətlərdən "Elektron hökumət" portalı vasitəsilə istifadə imkanlarına dair təqdimatlar keçirilmiş, eyni zamanda press-relizlər hazırlanaraq Nazirliyin rəsmi internet saytında yerləşdirilmiş və bu barədə kütləvi informasiya vasitələri məlumatlandırılmışdır. Bundan başqa, Nazirlik tərəfindən göstərilən elektron xidmətlərə və onların "E-hökumət" portalına inteqrasiyasına dair press-relizlər hazırlanaraq, kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. Məlumat üçün qeyd edək ki, Nazirlik tərəfindən göstərilən elektron xidmətlərdən yalnız 5-i "E-hökumət" portalına inteqrasiya olunub. Hazırda Nazirliyin göstərdiyi elektron xidmətlərin "E-hökumət" portalına inteqrasiyası istiqamətində zəruri təşkilati-inzibati və texniki işlər aparılmaqdadır. Bu sahədə görüləcək işlərə və əldə oluncaq yeni nəticələrə görə ictimaiyyətin və kütləvi informasiya vasitələrinin məlumatlandırılması təmin ediləcəkdir. |

| | | |
|---|---|---|
| 3. | Elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi (1.4.) | İqtisadiyyat Nazirliyinin göstərdiyi elektron xidmələrdən “Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu” xidməti üzrə sertifaktların verilməsi üçün müddət azaldılaraq 1 gün müəyyən edilmişdir. Elektron xidmətlərin tətbiqi ilə əlaqədar İqtisadiyyat Nazirliyi tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi istiqamətində əlavə araşdırmalar və təhlillər də aparılmış, hazırda əldə edilmiş nəticələr əsasında təkliflərin hazırlanaraq razılaşdırılması istiqamətində müvafiq işlər aparılır.<br>Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 21.12.15. tarixli Fərmanı ilə “Lisenziyalaşdırma Qaydası”, “Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri”, “Dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri” və “Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı” təsdiq edilmişdir. Sözügedən Fərmana əsasən lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə (o cümlədən 4 dövlət təhlükəsizliyindən irəli gələn hallar) endirilmişdir ki, ləğv edilmiş 22 fəaliyyət növü üzrə verilmiş lisenziyalar qüvvədə olan ümumi lisenziyaların 75 faizini təşkil etmişdir. Həmçinin bütün lisenziyalar, o cümlədən qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği 2 dəfə azaldılmış, lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə endirilmiş, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə azaldılmış, lisenziya verilməsi üçün tələb olunan prosedurlar əhəmiyyətli dərəcədə sadələşdirilmişdir. Həmçinin icazələrin sayı 330-dan 86-a endirilmişdir. Sahibkarların vaxt itkisi və əlavə sənədləşmə işləri ilə qarşılaşmamları üçün lisenziya almaq istəyən sahibkarlar üçün İqtisadiyyat Nazirliyinin əməkdaşları tərəfindən “ASAN xidmət” mərkəzlərində məsləhət xidmətləri göstərilməkdədir.<br>Bundan əlavə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə |

| | | |
|---|---|---|
| | | əsasən lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi ödənilir. Eyni zamanda, lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin bir neçə alt növünün eyni vaxtda həyata keçirilməsi üçün müraciət edildikdə, həmin alt növlərdən hamısı üçün deyil yalnız biri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir. Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin müvafiq növü üzrə bir və ya bir neçə iş və xidmətlərin həyata keçirilməsi üçün müraciət edildikdə, iş və xidmətlərin sayından asılı olmayaraq həmin fəaliyyət növü üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir. Lisenziya verildikdən sonra lisenziya sahibi lisenziyada göstərilən fəaliyyət növünü başqa obyektlərdə də həyata keçirmək və ya lisenziyanın əlavəsində göstərilməyən iş və xidmətlərlə məşğul olmaq üçün lisenziya əlavəsinin alınması məqsədi ilə müraciət etdikdə, obyektlərin və ya iş və xidmətlərin sayından asılı olmayaraq müvafiq fəaliyyət növünə lisenziya verilməsinə görə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi ödənilir. Həmçinin, sahibkarlar lisenziyanın yenidən rəsmiləşdirilməsi və bərpası üçün dövlət rüsumu ödənilməsindən azad edilmişdirlər.<br>Bundan əlavə, “Lisenziyalar və icazələr” portalının Əsasnaməsinin layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Portalın fəaliyyətə başlaması nəticəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin verilməsi tamamilə elektronlaşdırılacaq və tələb edilən rəsmi sənəd və arayışların sayı bir qədər də azalacaqdır. |
| 4. | Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi (2.4.) | Hazırda İqtisadiyyat Nazirliyinin yeni internet səhifəsinin və saytın mobil versiyasının yaradılması istiqamətində müvafiq texniki işlər aparılır. Bununla belə, hazırda Nazirliyin mövcud internet səhifəsi fəaliyyətini davam etdirir, sayt mütəmadi olaraq yenilənir. İqtisadiyyat Nazirliyinin “Facebook” və “Twitter” sosial şəbəkələrində səhifələri mövcuddur. Nazirliyin fəaliyyəti zamanı yaranan məlumatlar, xüsusilə də vətəndaşlar üçün maraq kəsb edən informasiyalar www.economy.gov.az saytı ilə yanaşı, sosial şəbəkələrdəki səhifələrdə də yerləşdirilir və həmin səhifələr mütəmadi olaraq yenilənir. www.economy.gov.az rəsmi internet saytından sosial şəbəkələrdəki səhifələrə onlayn keçid təmin olunub. Həmçinin, Nazirliyin “Facebook” və “Twitter” səhifələri üzrərindən vətəndaşların sualları |

| | | |
|---|---|---|
| | | operativ qaydada cavablandırılır. Hazırda Nazirliyinin "Facebook" səhifəsinin istifadəçilərinin sayı 4500-ə yaxındır. Eyni zamanda, Nazirliyin tabeliyində olan qurumlarda da sosial şəbəkələrdə səhifələrin yaradılması istiqamətində zəruri işlər görülməkdədir. |
| 5. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi (4.1.1.) | Açıq hökümət prinsiplərinin təşviqi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə çərçivəsində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüsləri daim dəstəklənmiş, bu istiqamətdə İqtisadiyyat Nazirliyinin səlahiyyətləri daxilində götürülmüş aidiyyəti öhdəliklərin icrası daim diqqət mərkəzində saxlanılmışdır.<br>Bununla əlaqədar, "Şəffaflıq-Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin "Dövlət orqanlarına təqdim edilən tövsiyələrin monitorinqinin yekun nəticələrinə dair hesabat" mövzusunda 21.06.16. tarixində keçirilən dəyirmi masada və Azərbaycan Respublikasının Auditorlar Palatasının təşkilatçılığı ilə və QHT-lərin iştirakı ilə ölkəmizdə həyata keçirilən islahatlara dəstək məqsədilə 28.06.16. tarixində "Korrupsiya ilə mübarizədə və şəffaflığın artırılmasında auditorların qarşısında duran vəzifələr" mövzusunda keçirilmiş dəyirmi masada İqtisadiyyat Nazirliyinin əməkdaşları iştirak etmişdir. Bundan əlavə, "Şəffaflıq-Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin və "Konstitusiya Araşdırmalar Fondu"nun Azərbaycan Respublikası Prezidentinin 05.09.12. tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2015-ci il üzrə icra vəziyyətinin monitorinqinin nəticələri əsasında hazırlanmış hesabatın müvafiq olaraq 04.08.16. və 08.08.16. tarixlərində keçirilmiş təqdimatlarında, eyni zamanda "Şəffaflıq-Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin və "Konstitusiya Araşdırmalar Fondu"nun Azərbaycan Respublikası Prezidentinin 05.09.12. tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın ümumi icra vəziyyətinin monitorinqinin nəticələri əsasında hazırlanmış hesabatın müvafiq olaraq 07.09.16. və 08.09.16. tarixlərində keçirilmiş təqdimatlarında, eyni zamanda, "Şəffaflıq-Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin dövlət orqanlarına təqdim edilən tövsiyələrin monitorinqinin yekun nəticələrinə dair hesabat" mövzusunda 08.09.16. tarixində keçirilmiş dəyirmi masada İqtisadiyyat Nazirliyinin əməkdaşları iştirak etmişdir. |

| | | |
|---|---|---|
| | | Həmçinin bu istiqamətdə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə “Şəffaflıq-Azərbaycan“ Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi, “Konstitusiya Araşdırmalar Fondu” və digər vətəndaş cəmiyyəti inistutları ilə, həmçinin, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun nümayəndələri ilə mütəmadi görüşlər keçirilmişdir.<br>Bununla yanaşı, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında ictimai nəzarətin təşkili sahəsində əməkdaşlıqla bağlı hüquqi məsələlərin tənzimlənməsi məqsədilə Anlaşma Memorandumunun layihəsi hazırlanmış və bu sahədə funksional fəaliyyət istiqamətləri üzrə qarşılıqlı əməkdaşlıq nəzərdə tutulmuşdur. |
| 6. | “Açıq hökumət tərəfdaşlığı” vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi (4.1.3.) | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, mərkəzi və yerli icra hakimiyyəti orqanları və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya ilə birgə 2016-cı ildə “Açıq hökumət tərəfdaşlığı” vətəndaş cəmiyyəti platforması yaradılmışdır. Hazırda Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən bununla bağlı təşkilati-hüquqi məsələlər və platformanın iş mexanizmi üzərində işlər davam etdirilməkdədir. Gələcəkdə Platformanın fəaliyyət istiqamətləri ilə bağlı İqtisadiyyat Nazirliyinin üzərinə düşən aidiyyəti tapşırıqlar və öhdəliklər icra ediləcək və platformanın fəaliyyəti Nazirlik tərəfindən dəstəklənəcəkdir. |
| 7. | İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi (4.2.1.) | Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması, vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsinə dair tapşırıqların icrasının təşkili məqsədilə, Nazirlik tərəfindən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu ilə əməkdaşlığa başlanılmış, eləcə də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi və Nazirliyin mühüm və zəruri hesab olunan fəaliyyət istiqamətləri üzrə birgə layihələrin icrası üçün Nazirlikdə İctimai-Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulmuş və bununla əlaqədar ilkin olaraq İctimai-Əməkdaşlıq Şurasının reqlamenti, İqtisadiyyat Nazirliyində İctimai-Əməkdaşlıq Şurasının fəaliyyətini tənzimləyən əmr layihəsi və Şuraya üzvlərin seçilməsinə dair nümunəvi elanın forması hazırlanmış, eyni zamanda “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikası Nazirlər |

| | | |
|---|---|---|
| | | Kabinetinin 30.05.14. tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə" ilə ictimai şuranın yaradılması və ictimai şuraya üzvlərin vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsi qaydaları müəyyən edilmişdir. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə" 16.01.14. tarixli 89 nömrəli Fərmanının tələblərinə uyğun olaraq İqtisadiyyat Nazirliyinin yanında ictimai şura yaradılacağı təqdirdə "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə əsasən müvafiq işlər görüləcəkdir. Bundan əlavə, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası və Azərbaycan Respublikası Prezidenti yanında Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı, dövlət nümayəndələrinin, yerli və xarici ekspertlərin iştirakı ilə korrupsiyaya qarşı mübarizə və açıq hökumətin təşviqinə dair fəaliyyət planlarının layihələrinin müzakirəsi barədə 14.03.16. tarixində keçirilmiş tədbirdə İqtisadiyyat Nazirliyinin məsul əməkdaşlarının iştirakı təmin olunmuşdur. |
| 8. | İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi (4.2.2.) | "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə" 16.01.14. tarixli 89 nömrəli Fərmanının tələblərinə uyğun olaraq İqtisadiyyat Nazirliyinin yanında ictimai şura yaradılacağı təqdirdə "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə əsasən müvafiq işlər görüləcək və ictimai şuranın tərkibi və fəaliyyəti ilə bağlı Nazirliyin rəsmi internet resurslarında ayrıca bölmənin yaradılması təmin ediləcəkdir. |
| 9. | İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu | İstehlakçıların hüquqlarının qorunmasında ictimai nəzarətin gücləndirilməsi və ictimaiyyətin iştirakının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin "195-2" Çağrı Mərkəzinin yaradılması vətəndaşların İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı müraciət imkanlarını sadələşdirmişdir.<br>İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət |

| | | |
|---|---|---|
| | məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi (4.2.3.) | Xidmətində də “Qaynar xətt” bölməsi yaradılmış və bunun vasitəsilə vətəndaşların Dövlət Xidmətinin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı telefon müraciət imkanları genişləndirilmişdir. Xidmətin qaynar xəttinin işinin təkmilləşdirilməsi ilə bağlı 2016-cı ildə müvafiq təbirlər görülmüş, o cümlədən qaynar xəttin canlı rejimdə fəaliyyət göstərmədiyi vaxtlarda səsli menyu vasitəsilə müraciət edənlərə xidmət göstərilməsi, növbəti iş saatlarında əks əlaqə yaradılması üçün zəng sifarişi etmək imkanının təklif edilməsi və növbəti iş günü əks əlaqə yaradılaraq müvafiq xidmətin göstərilməsi, həmçinin qaynar xətt vasitəsilə aparılan telefon danışıqlarının qeydə alınması və bu barədə müraciət edən şəxslərə əvvəlcədən məlumat verilməsi təmin edilmiş və müraciət edən şəxslə qeydə alınmış danışığın səs yazısının elektron daşıyıcıda olan surətini yazıldığı gündən 3 ay ərzində alması üçün şərait yaradılmışdır.<br>Canlı rejimdə fəaliyyət zamanı xidmətin keyfiyyətinin ölçülməsi və yüksəldilməsi, təmsilçilərin yol verdiyi nöqsanların aşkarlanması və gələcəkdə təkrarlanmaması məqsədi ilə monitorinqlər keçirilmiş, həmçinin qaynar xətt təmsilçilərinin peşə hazırlığının yüksəldilməsi məqsədilə praktiki məşğələlərdən ibarət təlimlər təşkil olunmuşdur. Bu istiqamətdə görülən işlər gələcəkdə də davam etdiriləcəkdir.<br>Vətəndaşlardan müraciətlərin operativ qaydada qəbul olunması və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə Dövlət Xidmətində ayrılmış iki telefon nömrəsinə şikayət və təkliflərini bildirmələri müxtəlif vasitələrlə ictimaiyyətin nəzərinə çatdırılmışdır.<br>Dövlət Xidmətinin elektron poçt ünvanının (office@consummer.gov.az) və internet səhifəsinin (www.consummer.gov.az) fasiləsiz fəaliyyəti təmin edilmişdir. Eyni zamanda, 2016-cı ilin yanvar-noyabr ayları ərzində istehlakçı hüquqları ilə bağlı Dövlət Xidmətində 4916 müraciətə baxılmışdır. Bundan əlavə, Dövlət Xidməti tərəfindən istehlakçı hüquqları ilə bağlı maarifləndirmə tədbirləri 2016-cı ildə də davam etdirilərək Ağsu, Astara, Qəbələ, Bərdə, Gəncə, Balakən, Gədəbəy, Beyləqan, Neftçala, Sabirabad və İsmayıllı rayonlarında “Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir” mövzusunda konfranslar, eyni zamanda müxtəlif ali və orta ixtisas təhsil müəssisələrində “İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir” mövzusunda seminarlar təşkil edilmişdir. |

| | | |
|---|---|---|
| 10. | Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi və bu hesabatların dərc edilməsinə nəzarətin gücləndirilməsi (5.5) | Nazirliyin illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı müvafiq məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar təşkilati-inzibati işlərin görülməsi və həmin məlumatların müvafiq hesabat ili tamamlandıqdan sonra internet səhifəsində yerləşdirilməsi təmin ediləcəkdir. Bundan əlavə Nazirliyin digər strukturları və strukturuna daxil olmayan tabeliyindəki qurumlar, Nazirliyin təsisçisi olduğu, səhimlərin saxlanılması və ya idarə olunması Nazirliyə həvalə olunmuş hüquqi şəxslər və Tarif (qiymət) Şurasının Katibliyi tərəfindən də hesabat ili bitdikdən sonra illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifələrində dərc edilməsi təmin ediləcəkdir. |
| 11. | Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi (5.6) | İqtisadiyyat Nazirliyi tərəfindən satın alınacaq mallar və xidmətlər barədə məlumatlar hər il mütəmadi olaraq internet səhifələrində yerləşdirilir. Nazirlik tərəfindən 2016-cı ildə həyata keçirilməsi planlaşdırılan satınalmalar barədə məlumatlar carı ilin əvvəlində tender.gov.az internet səhifəsində yerləşdirilmişdir.<br>2016-cı ilin 9 ayın nəticələrinə görə satınalmalarda dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, müsabiqə və aşkarlıq əsasında bütün malgöndərənlərə bərabər rəqabət mühitinin yaradılması üçün İqtisadiyyat Nazirliyi tərəfindən görülmüş tədbirlər nəticəsində ötən ilin müvafiq dövrü |

| | | |
|---|---|---|
| | | ilə müqayisədə keçirilmiş açıq tenderlərin sayı 48,7%, açıq tender üsulu ilə satınalmaların məbləği 2,8 dəfə artmışdır, ümumilikdə, müsabiqə əsaslı satınalmalarla alınmış malların məbləği 77,7%, 1 oktyabr tarixinə elan olumuş açıq tenderlərin sayı isə 5,3 dəfə artmışdır.<br>Bundan əlavə, İqtisadiyyat Nazirliyi tərəfindən qabaqcıl beynəlxalq təcrübəyə əsasən hazırlanmış "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi hazırda digər aidiyyəti dövlət orqanları ilə razılaşdırma mərhələsindədir. |
| 12. | "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi (8.6.) | "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının İqtisadiyyat Nazirliyində tətbiqi ilə bağlı cari ildə təhlillər aparılmış və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində təlimlərin keçirilməsi qaydaları", "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində yeni xidmətə qəbul edilmiş əməkdaşların adaptasiya qaydaları" və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin daxili nizam-intizam Qaydaları"nın İqtisadiyyat Nazirliyində tətbiqi ilə bağlı hüquqi-təşkilati işlər görülmüş və qeyd olunan hüquqi aktların növbəti ildə qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq edilməsi təmin ediləcəkdir. Eyni zamanda, Dövlət Agentliyi ilə birgə İqtisadiyyat Nazirliyinin göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi və dövlət xidmətlərinin fəaliyyətlərinin dövrün çağırışlarına uyğun təmin edilməsi məqsədilə mütamadi olaraq işlər görülür. |
| 13. | Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi (8.7.) | Ölkənin davamlı sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması, sahibkarlar üçün daha əlverişli şəraitin yaradılması, iqtisadiyyatın diversifikasiyası, yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı, müasir dövrün tələblərinə cavab verən tənzimləmə siyasətinin həyata keçirilməsi qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Yeni inkişaf mərhələsində olan ölkə iqtisadiyyatında sahibkarların rolunun daha da artırılması, sahibkarlığın inkişafına kompleks dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, eləcə də onların qarşılaşdıqları problemlərin operativ həll edilməsi və bu istiqamətdə sahibkar məmnunluğuna nail olunması Nazirliyin əsas prioritet istiqamətlərindəndir.<br>İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların |

| | | |
|---|---|---|
| | | müraciətlərinə baxılması işi daha da təkmilləşdirilmiş və sahibkarlarla birbaşa əlqədə olan Nazirliyin bütün struktur bölmələri tərəfindən sahibkarlardan daxil olmuş müraciətlərə baxılması zamanı aşağıdakı tələblərə mütləq qaydada əməl edilmişdir;<br>- sahibkarların müraciətlərinin qanunvericiliyin tələblərinə uyğun olaraq obyektiv, hərtərəfli, vaxtında və mahiyyəti üzrə araşdırılması və baxılması təmin edilmiş;<br>- müraciətdə qaldırılan məsələlərlə bağlı sahibkarlar dəvət olunaraq və ya yerində onların iştirakı ilə müzakirlər aparılmış;<br>- sahibkarların müraciətləri ilə bağlı keçirilmiş müzakirələrin nəticələri rəsmiləşdirilmiş;<br>- sahibkarlar qəbula gəlmədikdə onlarla şifahi qaydada əlaqə saxlanılaraq, bunun səbəbi öyrənilmiş, müraciətlərində qaldırılan məsələlər aydınlaşdırılaraq şifahi danışıqlar aktlaşdırılmış;<br>- vaxt itkisinin qarşısının alınması və operativliyin təmin edilməsi məqsədilə müraciətlərə baxılması üzrə icraat zamanı izahatların elektron qaydada alınması mexanizminin yaradılması işlərinə başlanılmış;<br>- sahibkarların müraciətlərində qeyd olunan məsələlərlə əlaqədar aidiyyəti qurumlara müvafiq məktublar ünvanlanmış və bir qayda olaraq məsələ barədə onlardan cavab alındıqdan sonra müraciətlər cavablandırılmış;<br>- sahibkarların müraciətlərinə baxılmasına dair cavab məktubunda müraciətlərdə göstərilən məsələlərin araşdırılması və görülən tədbirlər və ya həmin məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edilməli subyekt göstərilmiş;<br>- sahibkarların müraciətlərinin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda, müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilmiş;<br>- müraciətlərinə baxılmasının nəticəsi haqqında sahibkarlara yazılı formada məlumat verilmiş, müraciətlər təmin edilmədikdə bunun səbəbləri göstərilmiş və şikayət verilməsi qaydası izah edilmişdir.<br>Sahibkarlardan daxil olmuş müraciətlərə baxılması daim diqqətdə saxlanılaraq “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə və Azərbaycan Respublikası |

| | | |
|---|---|---|
| | | Prezidentinin 23.06.16. tarixli 950 və 951 nömrəli Fərmanları ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" və "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydaları"na uyğun həyata keçirilir.<br>Azərbaycan Respublikası Prezidentinin 03.02.16. tarixli 762 nömrəli Fərmanına əsasən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında kollegial orqan olan Apellyasiya Şuraları yaradılmış və onların nümunəvi əsasnaməsi təsdiq edilmişdir. İqtisadiyyat Nazirliyinin Apelyasiya Şurası tərəfindən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin səlahiyyətlərinə aid verilmiş təkrar şikayətlərinə baxılması təmin edilmişdir.<br>2016-cı ilin yanvar-noyabr aylarında Nazirliyə sahibkarlıq fəaliyyəti ilə bağlı daxil olmuş müraciətlərin ümumi sayı 851 ədəd təşkil etmişdir ki, bunun da 656-ı bilavasitə fərdi sahibkarların, qalan 195-i isə hüquqi şəxslərin payına düşür. Yanvar ayı üzrə daxil olmuş müraciətlərin sayı 105 ədəd, fevral ayı üzrə 124 ədəd, mart ayı üzrə 91 ədəd, aprel ayı üzrə 61 ədəd, may ayı üzrə 70 ədəd, iyun ayı üzrə 64 ədəd, iyul ayı üzrə 52 ədəd, avqust ayı üzrə 59 ədəd, sentyabr ayı üzrə 66 ədəd, oktyabr ayı üzrə 87 ədəd, noyabr ayı üzrə isə 72 ədəd olmuşdur. Daxil olmuş müraciətlərin araşdırılması zamanı həmin şəxslər Nazirliyə dəvət edilərək ətraflı dinlənilmiş, qanunvericiliyin tələblərinə əsasən hüquq və vəzifələri izah edilərək, onların müraciətləri ayrı-ayrılıqda cavablandırılmışdır.<br>Sahibkarların qarşılaşa biləcəyi problemlərə adekvat preventiv tədbirlərin görülməsi zərurəti ilə, eyni zamanda ölkəmizdə iqtisadi sahədə aparılan islahatların davamı olaraq investisiya |

| | | |
|---|---|---|
| | | fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 18.01.16. tarixlil 745 nömrəli və 20.04.16. tarixli 877 nömrəli fərmanlarına əsasən sahibkarlara qanunla nəzərdə tutulmuş müxtəlif güzəştlərin verilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi və investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədlərin verilməsinə başlanılmışdır. Nazirlik tərəfindən 27.12.2016-cı il tarixinədək 79 sahibkarlıq subyektinə 84 investisya təşviqi sənədi, 59 sahibkarlıq subyektinə isə 229 təsdiqedici sənəd verilmişdir. Sahibkarlıq subyektlərinə verilmiş investisya təşviqi sənədlərinin 32-i kənd təsərrüfatlı, 52-i isə sənaye təyinatlı müəssisələrdir. Bu layihələrin ümumi dəyəri 1,017,234.3 min manat, gətiriləcək avadanlıqların məbləği 490,829.8 min manat, güzəştlə gətirilmiş avadanlıqların dəyəri 33,726.2 min ABŞ dollarıdır. Həmçinin, qeyd edilən layihələrin həyata keçirilməsi nəticəsində 6685 yeni iş yerlərinin açılması nəzərdə tutulmuşdur.<br>Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” 19.10.15. tarixli 650 nömrəli Fərmanına əsasən lisenziyaların (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) verilməsi İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində həyata keçirilir. Nazirlik tərəfindən 02.11.15.-28.12.16. tarixləri ərzində "ASAN xidmət" mərkəzləri vasitəsilə sahibkarlıq subyektlərinə 2953-ü Bakı şəhəri, 412-i isə region olmaqla ümumilkdə 3365 lisenziya verilmişdir.<br>Sahibkarların qarşılaşdığı maliyyə problemlərinin həlli məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2016-cı il ərzində regionlarda, eləcə də Bakı şəhərində və onun qəsəbələrində 2500-ə yaxın sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 190 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 8100-dən çox yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 74%-i respublikanın regionlarının, 26%-i isə Bakı şəhəri və onun qəsəbələrinin payına düşür. Verilən kreditlərin 82,3%-i aqrar sektorun, 17,7%-i sənaye və digər sahələrin inkişafına yönəldilib. Güzəştli kreditlər müasir |

| | | |
|---|---|---|
| | | heyvandarlıq və istixana kompleksləri, logistik mərkəzlər, ixtisaslaşdırılmış “yaşıl market”, çörək zavodları, iri fermer, quşçuluq və intensiv bağçılıq, pambıqçılıq, zeytunçuluq və tütünçülük təsərrüfatları, ət və süd, meyvə-tərəvəz məhsullarının emalı, ət kəsimi, un və un məmulatları, balıq yemi, mətbəx və məişət malları, mebel, tara, tikinti materiallarının istehsalı və digər sahələr üzrə layihələrin maliyyələşdirilməsinə yönəldirmişdir. |
| 14. | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi (8.9) | Son dövrlər iqtisadi sahədə aparılan islahatları özündə əks etdirən strateji sənədlərdə (normativ hüquqi aktlarda) müəyyən edilmiş prioritetlər, vətəndaşların və sahibkarların maraqlarını formalaşdıran tədbirlər, iqtisadi sahədə həyata keçirilən islahatlar, o cümlədən daxili istehsalın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar, eyni zamanda onların məqsədi və mahiyyəti barədə məlumatlar, qarşıya qoyulan strateji hədəflərin konkret və ölçüləbilən meyarlar əsasında icra olunması mexanizmləri mütəmadi olaraq Nazirliyin rəhbərliyi və müvafiq qurumları tərəfindən Bakı şəhərində və regionlarda keçirilən tədbirlərdə ictimaiyyətin diqqətinə çatdırılmış, qeyd olunan məlumatların həmçinin Nazirliyin rəsmi internet saytında və digər internet saytlarında dərci, eyni zamanda həmin məlumatların Nazirliyin sosial şəbəkələrində yayılması təmin edilmişdir. |
| 15. | Özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədi ilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflərin hazırlanması (9.1.) | Özəl sektorun genişlənməsi üçün daha əlverişli mühitin yaradılması, şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədilə Nazirlik tərəfindən antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə müvafiq təkliflər hazırlanır, həmçinin bu sahə üzrə mütəmadi olaraq təlim və treninqlər keçirilmiş, maarifləndirici materiallar hazırlanmış onların yayılması təşkil edilmişdir. Özəl sektorda antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflər hazırlanarkən mövcud qanunvericilikdə əks olunan tələblər, o cümlədən “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd olunan bilavasitə korrupsiya və korrupsiyaya şərait yaradan hüquqpozmalarına yol verilməməsinə, korrupsiya hüquqpozmalarına görə fiziki və ya hüquqi şəxslərin məsuliyyətinə, korrupsiya ilə əlaqədar hüquqpozmaların nəticələrinin aradan qaldırılmasına dair tələblər və etik davranış qaydaları ilə bağlı müvafiq qanunlarda əks olunan etik davranış qaydaları nəzərə alınmış, eləcə də dövlət orqanlarında olan mövcud hesabatlılıq tələbləri əsas götürülərək, onların özəl sektora tətbiq edilməsinin |

| | | |
|---|---|---|
| | | mümkünlüyü araşdırılmışdır. Bundan əlavə, özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları və uyğunluq mexanizmləri üzrə sahibkarlar üçün nəzərdə tutulmuş təlim və treninqlərin təqvim-tematik planı hazırlanaraq, Bakı şəhərində və regionlarda aylar üzrə mütəmadi olaraq müvafiq təlim və treninqlərin keçirilməsi təmin edilmiş, eyni zamanda özəl sektorda korrupsiyanın qarşısının alınması üzrə qanunvericiliyin tələblərini özündə əks etdirən müvafiq maarifləndirici materialların hazırlanması və onların ilkin olaraq Nazirliyin rəsmi internet saytında yerləşdirilməsi, daha sonra isə sahibkarlar üçün keçirilən təlim və treninqlərdə sahibkarlara təqdim edilməsi təmin edilmişdir. Gələcəkdə bu sahə üzrə sosial reklamların yayımlanmasının təşkil edilməsi və “online” tədris proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.<br>İqtisadiyyat Nazirliyi tərəfindən korporativ idarəetmə prinsiplərinin sənaye müəssisələrində tətbiqi ilə bağlı ümumilikdə 8 mövzu üzrə təlimlərin keçirilməsi nəzərdə tutulmuş, o cümlədən 2016-cı ilin mart-aprel aylarında müəssisə və təşkilatlar üçün “Korporativ idarəetməyə giriş. Korporativ idarəetmənin anlayışı. Dövlət müəssisələrinin spesifikliyi”, “Müşahidə (Direktorlar) Şurası və onun formalaşdırılması. Müstəqil direktorlar. Müşahidə Şurasının Komitələri” və “İdarə heyətinin formalaşdırılması” mövzularında, eyni zamanda 02.06.16. tarixində “Audit fəaliyyəti. Daxili audit”, 03.11.16. tarixində “Mükafatlandırma siyasəti” və 15.11.16. tarixində “Maraqların toqquşması və onun həlli” mövzularında təlimlər keçirilmişdir.<br>Hesabat dövründə İqtisadiyyat Nazirliyi tərəfindən “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliyinin qiymətləndirilməsi Qaydası”nın layihəsi hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir.<br>Ölkəmizdə özəl sektorun inkişafına dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsini gücləndirmək, dövlət-sahibkar münasibətlərini daha da təkmilləşdirmək, özəl sektorun inkişaf etdirilməsi, sahibkarlar tərəfindən edilən müraciətlərin cavablandırılmasında sistemlilik yaratmaq, operativliyə nail olmaq üçün digər dövlət orqanlarında, o cümlədən İqtisadiyyat Nazirliyində Çağrı Mərkəzi yaradılmışdır. Çağrı Mərkəzi “195-2” prefiks nömrəsi ilə 01.09.09. tarixindən rəsmi fəaliyyət göstərir və ölkənin bütün regionlarını əhatə edir. 2009-cu ilin 1 sentyabr tarixindən 2016-cı ilin 1 |

| | | |
|---|---|---|
| | | dekabr tarixinədək Mərkəzə 60862, o cümlədən 2016-cı ilin 11 ayı ərzində 16333 müraciət daxil olmuş və cavablandırılmışdır. |
| 16. | Özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları və uyğunluq mexanizmləri üzrə təlim və treninqlərin keçirilməsi (9.2.) | Özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları və uyğunluq mexanizmləri üzrə təlim və treninqlərin keçirilməsinin təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 2016-cı il ərzində aşağıdakı işlər görülmüşdür:<br>"İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər" mövzusunda Bakı şəhərində və regionlarda keçirilmiş 150-yə yaxın tədbir keçirilmişdir. Həmin tədbirlərdə təqdimatlar edilmiş, İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər, www.b2b.az elektron portalı və ondan istifadə qaydaları, portalın biznesin səmərəli təşkili və inkişafı, korrupsiya risklərinin aradan qaldırılması, şəffaflığın artırılması üçün yaratdığı əlverişli imkanlar və s. barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır.<br>06.05.16. tarixində Xaçmaz şəhərində, 20.05.16. tarixində Ağcabədi rayonunda, 06.10.16. tarixində Yardımlı rayonunda, 21.10.16. tarixində Qazax rayonunda, 28.10.16. tarixində İsmayıllı rayonunda, 16.11.16. tarixində Daşkəsən rayonunda, 23.11.16. tarixində isə Astara rayonunda sahibkarlar üçün "Apellyasiya Şurasının fəaliyyəti" mövzusunda treninqlər keçirilmişdir.<br>İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları üçün 29.04.16. tarixində "Azərbaycan Respublikasında sahibkarlıq fəliyyəti sahəsində qanunvericilikdə edilən son dəyişikliklər", "Azərbaycan Respublikasında sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsi barədə", 06.05.16. tarixində "Lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri barədə", "Azərbaycan Respublikasında |

| | | |
|---|---|---|
| | | sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi barədə”, 13.05.16. tarixində “Azərbaycan Respublikasında sahibkarlıq fəliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi barədə”, “İnvestisiyaların təşviqi sənədinin verilmə mexanizmləri barədə”, 20.05.16. tarixində “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlara gömrük və vergi güzəştləri barədə”, “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası barədə”, 03.06.16. tarixində “Qeyri-neft sektorunun təşviqi mexanizmləri barədə”, “Antiinhisar siyasəti, istehlakçıların qanuni hüquq və mənafelərinin müdafiəsi, haqsız rəqabət, reklam, dövlət satınalmaları və s. sahədə yeniliklərlə bağlı məsələlər barədə”, 09.09.16. tarixində “Azərbaycan Respublikasında antiinhisar, haqsız rəqabət və reklam qanunvericiliyi“, 23.09.16. tarixində “Sahibkarlıq subyektlərinə mənşə, keyfiyyət sertifikatının və təsdiqedici kod nömrəsinin verilməsi”, 07.10.16. tarixində “Dövlət satınalmalarında sahibkarlıq subyektlərinin iştirakı və satınalan təşkilatın qanunsuz hərəkətlərindən və ya qərarlarından və ya istifadə etdiyi satınalma prosedurundan şikayət verilməsi”, 21.10.16. tarixində “Lisenziya tələb olunan fəaliyyət növlərinin hüquqi əsaslandırılması, lisenziyanın verilməsi üçün tələb olunan əlavə şərtlər”, 04.11.16. tarixində “Sahibkarlıq subyektlərinə verilən icazələr və onların hüquqi əsaslandırılması”, 18.11.16. tarixində “Qeyri-neft sektorunun təşviqi mexanizmləri”, 02.12.16. tarixində “Lisenziya və icazələrin “Lisenziyalar və icazələr” portalı vasitəsilə verilməsi” mövzularında treninqlər keçirilmiş, 16.12.16. tarixində isə “Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti sahəsində qanunvericilikdə baş vermiş son yeniliklər” mövzusunda treninqlər keçirilmişdir.<br>İqtisadiyyat Nazirliyinin əməkdaşları üçün 20.07.16. tarixində “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın tələbləri və qarşıda duran vəzifələr”, 15.08.16. tarixində “Dövlət satınalmaları prosesində iştirak edən İqtisadiyyat Nazirliyinin əməkdaşlarının korrupsiya ilə əlaqədar hüquqpozmaların əlamətlərini aşkar etdikdə davranışı”, 15.09.16. tarixində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri. Dövlət qulluqçusunun əsas |

| | | |
|---|---|---|
| | | vəzifələri və hüquqları", 27.09.16. tarixində "İqtisadiyyat Nazirliyinin yoxlama aparan əməkdaşları tərəfindən maraqlar toqquşmasına yol verilməməsi", 18.10.16. tarixində "Vətəndaş müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri", 25.10.16. tarixində Etik davranış qaydaları, prinsipləri, mahiyyəti və həyata keçirilməsinin təmin olunması", 16.11.16. tarixində "Maraqlar toqquşmasının qarşısının alınması sahəsində dövlət qulluqçularının vəzifəsi və bununla bağlı qanun pozuntusuna görə dövlət qulluqçularının məsuliyyəti" mövzularında treninqlər keçirilmiş, 15.12.16. tarixində isə "Fiziki və ya hüquqi şəxs tərəfindən İqtisadiyyat Nazirliyinin əməkdaşının vəzifə səlahiyyətlərini həyata keçirməsinə qanunsuz təsir göstərmə cəhdləri zamanı zəruri davranış" mövzusunda treninqlər keçirilmişdir. |
| 17. | Özəl sektorda korrupsiyanın qarşısının alınması üzrə maarifləndirici materialların hazırlanması və həmin materialların yayılmasının təşkili (9.3.) | İqtisadiyyat Nazirliyi tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu, "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası", habelə son dövrdə aparılan iqtisadi islahatlar barədə sahibkarların maarifləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin davamı olaraq sahibkarlar və dövlət orqanları üçün cari ilin 27.05.16. tarixində Aran və Gəncə-Qazax iqtisadi rayonları (Mingəçevir, Yevlax, Gəncə, Naftalan şəhərləri, Ağdaş, Bərdə, Göyçay, Ucar, Zərdab, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları) üzrə Gəncə şəhərində, 03.06.16. tarixində isə Şəki Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonları (Şəki şəhəri, Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları) üzrə İsmayıllı şəhərində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə maarifləndirilmə tədbirləri keçirilmişdir. Tədbirlərdə İqtisadiyyat, Ədliyyə nazirliklərinin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Beynəlxalq Maliyyə Korporasiyasının (İFC), mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və sahibkarlar olmaqla ümumilikdə 350 nəfər iştirak etmişdir. İqtisadi islahatlar paketi çərçivəsində ötən ilin sonlarından etibarən sahibkarlığın inkişafı ilə bağlı verilən qərarlar, o cümlədən 01.11.15. tarixindən sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, həmin müddətdə aparılmasına icazə verilən yoxlamalar, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrinin |

| | | |
|---|---|---|
| | | sayının və lisenziyaların alınmasına görə tələb edilən dövlət rüsumlarının məbləğlərinin azaldılması, verilməsi prosedurlarının sadələşdirilməsi, bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması, ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında “bir pəncərə” prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə tətbiq olunan vergi və gömrük güzəştləri, qeyri-neft ixracının təşviqi ilə bağlı ixrac təşviqinin ödənilməsi və əlavə dəstək mexanizmlərinin yaradılması, dövlət satınalmalarında aparılan təkmilləşdirmələr barədə ətraflı məlumat verilmişdir.<br>Həmçinin, sahibkarların hüquqlarının müdafiəsi sahəsində mövcud qanunvericilik bazası, sahibkarlıq sahəsində aparılan yoxlamaların təşkili və aparılması qaydaları, yoxlamaların təşkili ilə bağlı risklərin idarə edilməsi, yoxlama suallarının siyahısı, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu, həmin Qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 26.10.15. tarixli Fərmanı ilə təsdiq edilmiş insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısı, yoxlamalara və sahibkarın fəaliyyətinə tətbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlərə İqtisadiyyat Nazirliyinin razılığının tələb olunduğu hallar, yoxlamaların elektron uçotu, yoxlayıcı orqanların vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri”nin məqsəd və prinsipləri, yenilikləri barədə məlumatlar da verilmişdir.<br>Bundan əlavə, “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 14.10.16. tarixli 334-VQD nömrəli Qanunu ilə “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş yeni 11-1-ci və 11-2-ci maddələrinin tələblərindən irəli gələn tapşırıqların icrası ilə bağlı iqtisadiyyat nazirinin müvafiq əmrilə İqtisadiyyat Nazirliyinin Aparatı, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlar üzrə əməkdaşlar tərəfindən korrupsiya ilə əlaqədar hüquqpozmalarla |

| | | |
|---|---|---|
| | | bağlı məlumatların verilməsi üçün səlahiyyətli struktur bölmə və müvafiq vəzifəli şəxs, eləcə də Nazirliyin təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə edilməsi Nazirliyə həvalə olunmuş hüquqi şəxslərdə və Tarif (qiymət) Şurasının Katibliyində də əməkdaşlar tərəfindən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün hər biri üzrə müvafiq vəzifəli şəxs və ya səlahiyyətli struktur bölmə müəyyən olunmuşdur. |
| 18. | İqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminalaşdırılması ilə əlaqədar qanunvericilik və digər tədbirlərin görülməsi (9.5) | Azad sahibkarlığın inkişafı üçün kompleks dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, o cümlədən iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminallaşdırılması, habelə sahibkar məmnunluğuna nail olunması üçün "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 6 may tarixli 230-VQD nömrəli Qanunu ilə iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminallaşdırılması həyata keçirilmişdir. |
| 19. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq əlaqələrinin təkmilləşdirilməsi, tövsiyə və tələblərin icrası üzrə tədbirlərin həyata keçirilməsi (10.1.) | Hesabat ilində aşağıdakı layihələrin İqtisadiyyat Nazirliyi tərəfindən dəstəklənməsi davam etdirilmişdir. Avropa İttifaqının 2010-cu il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Vergilər Nazirliyinin benefisiarı olduğu və Fransa-İspaniya konsorsiumu ilə birgə "İnsan resurslarının inkişafı üçün potensialın artırılmasında Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək" adlı tvinninq layihəsinin icrası yekunlaşmış, Avropa İttifaqının 2012-ci il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Vergilər Nazirliyinin benefisiarı olduğu və Fransa-İspaniya konsorsiumu ilə birgə həyata keçiriləcək "Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək" adlı tvinninq layihəsi üzrə və Avropa İttifaqının 2012-ci il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin benefisiarı olduğu və Fransa ilə birgə həyata keçiriləcək "Azərbaycanda pensiya sistemi islahatının həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" adlı tvinninq layihəsi üzrə müqavilələr imzalanmışdır. Hazırda Avropa İttifaqının 2012-ci il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Ombudsman Aparatının benefisiarı olduğu və Almaniya-Polşa |

| | | |
|---|---|---|
| | | konsorsiumu ilə birgə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) imkanlarının gücləndirilməsinə dəstək” adlı tvinninq layihəsi, Avropa İttifaqının 2012-ci il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Dövlət İmtahan Mərkəzinin benefisiarı olduğu və Litva ilə birgə “Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin gələcək islahatlarının həyata keçirilməsində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dəstək” adlı tvinninq layihəsi həyata keçirilir. Eyni zamanda, Avropa İttifaqının 2013-cü il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Vergilər Nazirliyinin benefisiarı olduğu “Transfer qiymətlərin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və inzibati nəzarət mexanizmlərinin yaradılması” adlı tvinninq layihəsi üzrə layihəsi üzrə isə hazırlıq işələri həyata keçirilməkdədir. Bundan əlavə, Avropa İttifaqının 2013-cü il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin benefisiarı olduğu “İcbari tibbi sığorta sisteminin tətbiq edilməsində Azərbaycan Respublikasına dəstək” adlı tvinninq layihəsi tender mərhələsində, Avropa İttifaqının 2013-cü il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin benefisiarı olduğu və Almaniya-İtaliya-Latviya konsorsiumu tərəfindən həyata keçiriləcək “Azərbaycan Respublikasının Milli Akkreditasiya Sisteminin gücləndirilməsi” adlı tvinninq layihəsi isə müqavilənin hazırlanması mərhələsindədir. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin benefisiarı olduğu “Kiçik və orta sahibkarlığın inkişafı sahəsində Azərbaycan Hökumətinə dəstək” adlı layihəsi, bundan əlavə, Avropa İttifaqının TAİEX yardım aləti çərçivəsində “Vergi nəzarətinin əhatəsinin genişləndirilməsi”, “Kiber iqtisadiyyatda vergi cinayətləri ilə mübarizə”, “ASAN xidmətin 108 Çağrı Mərkəzinin potensialının artırılması”, “Dövlət qulluğunda elektron qeydiyyat mexanizmi”, “Vergi sahəsinə risklərin idarə olunması”, “3-cü tərəfin məlumatına əsasən doldurulmuş vergi bəyannamələri”, “Dövlət qulluqçularının İT bacarıqları və rəqəmsal hazırlığı” mövzularında müraciətlər Avropa Komissiyasına göndərilmişdir.<br>İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində 31.03.10. tarixində Azərbaycan Respublikası ilə |

| | | |
|---|---|---|
| | | bağlı ikinci dəyərləndirmə hesabatının qəbul edilməsi və korrupsiyaya qarşı mübarizə ilə bağlı müvafiq tövsiyələrin verilməsi haqqında tədbirlər planında və hesabatda göstərilən tövsiyələrin icrası ilə əlaqədar iqtisadi inkişaf nazirinin 28.12.10. tarixli F-150 nömrəli əmrində nəzərdə tutulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə 2016-cı ilin I, II və III rübləri ərzində görülmüş işlər barədə məlumatlar ümumiləşdirilərək, 15.01.16. tarixli İSN-X/O-440/2016, 05.05.16. tarixli İSN-X/O-5798/2016 və 03.08.16. tarixli İSN-X/O-9253/2016 nömrəli məktublarla Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.<br>Bundan əlavə cari ilin 20-24 iyun tarixlərində Bakıda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 4-cü Monitorinq Raundu çərçivəsində keçirilmiş görüşlərdə Azərbaycan Respublikası Baş Prokurorluğu ilə birgə İqtisadiyyat Nazirliyinin əməkdaşları iştirak etmişdir. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda ədliyyə sisteminin inkişafına və məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək” layihəsinin Rəhbər Komitəsinə nümayəndə kimi İqtisadiyyat Nazirliyinin əməkdaşı daxil edilmişdir. Korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi istiqamətində Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin təşəbbüsləri İqtisadiyyat Nazirliyinin bu sahədə fəaliyyətində prioritet hesab edilmiş və müvafiq uyğunluq hesabatlarında ölkəmizin əldə etdiyi nəticələrin yüksək qiymətləndirilməsi məqsədilə aidiyyəti tədbirlərin görülməsinin vacibliyi daim nəzarətdə saxlanılmışdır. |
| 20. | Müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqramlarının hazırlanması, təlim və | Cəmiyyətin və dövlətin inkişafı, vətəndaşların rifah halının yaxşılaşdırılması, davamlı iqtisadi artımın təmin edilməsi, şəffaflığa nail olunması və əlverişli biznes mühitinin yaradılması üçün korrupsiyaya qarşı mübarizə istənilən cəmiyyət və dövlətin prioritet vəzifələrindən biridir. Bu məqsədlə müvafiq monitorinqlərin və tədqiqatların aparılması, treninqlərin keçirilməsi, antikorrupsiya mövzularına dair vəsaitlərinin nəşri, maarifləndirmə və məlumatlandırma kampaniyalarının aparılması Nazirlik tərəfindən aparılan əsas tədbirlərdəndir. İqtisadiyyat Nazirliyinin əməkdaşları üçün 2016-cı ilin iyul-dekabr ayları ərzində “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı” nın tələbləri və qarşıda duran vəzifələr”, “Dövlət satınalmaları prosesində iştirak edən İqtisadiyyat Nazirliyinin |

| | | |
|---|---|---|
| | treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi (10.2.) | əməkdaşlarının korrupsiya ilə əlaqədar hüquqpozmaların əlamətlərini aşkar etdikdə davranışı.”, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri. Dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları.”, “İqtisadiyyat Nazirliyinin yoxlama aparan əməkdaşları tərəfindən maraqlar toqquşmasına yol verilməməsi.”, “Vətəndaş müraciətləri haqqında ” Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri.”, “Etik davranış qaydaları, prinsipləri, mahiyyəti və həyata keçirilməsinin təmin olunması.” və “Maraqlar toqquşmasının qarşısının alınması sahəsində dövlət qulluqçularının vəzifəsi və bununla bağlı qanun pozuntusuna görə dövlət qulluqçularının məsuliyyəti.”, “Fiziki və ya hüquqi şəxs tərəfindən İqtisadiyyat Nazirliyinin əməkdaşlarının vəzifə səlahiyyətlərini həyata keçirməsinə qanunsuz təsir göstərmə cəhdləri zamanı zəruri davranış.” mövzularında treninqinlər keçirilmişdir. |
| 21. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində sosial çarxların, bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və paylanması (10.4) | Şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədilə korrupsiyaya qarşı mübarizə və etik davranış mövzuları üzrə üzrə İqtisadiyyat Nazirliyi tərəfinfən müxtəlif proqramlar hazırlanmış, təlim və treninqlər keçirilmiş, açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində sosial çarxlar, bukletlər, yaddaş kitabçaları və digər maarifləndirici materiallar nəşr edilmiş və müxtəlif tədbirlərdə, treninqlərdə və konfranslarda paylanılması təmin edilmişdir.<br>2016-cı ildə İqtisadiyyat Nazirliyi tərəfindən nəşr olunmuş maarifləndirici materiallar Nazirlik tərəfindən təşkil edilmiş tədbirlərdə vətəndaşlara, istehlakçılara və sahibkarlara paylanılmışdır. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehlakçı hüquqlarına dair 18 adda 50 mindən çox buklet, 6 adda 500 ədəd yaddaş kitabçası nəşr edilib və paylanılıb. AZPROMO tərəfindən “Doing Business 2016” (1500 kitab və 2000 disk), investsiya layihələrinə (500 kitab və 1000 disk), qurumun fəaliyyətinə və göstərdiyi xidmətlərə dair (1000 ədəd) buklet və yaddaş kitabçaları çap olunaraq, biznes forum və işgüzar görüşlərdə iş adamlarına paylanılmışdır. Cari ildə 10 min ədəd “Mənzil hüquqlarımız: nələri bilməliyik!” mövzusunda broşur çap olunaraq, mənzil-kommunal sahəsində keçirilən tədbirlərdə vətəndaşlara paylanılmışdır.<br>Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirici nəşrlərlə yanaşı, İKT-nin imkanlarından istifadə olunmaqla, istehlakçıların və sahibkarların elektron məlumatlandırılması da |

| | | |
|---|---|---|
| | | həyata keçirilmişdir. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədilə ticarət qaydalarına əməl olunmasına dair 9 maarifləndirici məlumat 560 mindən çox elektron ünvana göndərilib. Malları, işləri və xidmətləri dövlət vəsaiti hesabına satın alan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının maarifləndirilməsi və məlumatlandırılması məqsədilə satınalmaların təşkili prosedurları ilə bağlı 5 maarifləndirici məlumat 670-ə yaxın satınalan təşkilatın elektron ünvanına göndərilmişdir. İqtisadiyyat Nazirliyinin "Sahibkarlara Dəstək" Məlumat səhifəsində (sahibkar.economy.gov.az) yerləşdirilən yeni informasiya və məlumatlar qeydiyyatdan keçmiş 1600-dən artıq sahibkara elektron qaydada operativ olaraq göndərilmişdir.<br>Eyni zamanda, növbəti il ərzində korrupsiyaya qarşı mübarizə və etik davranış mövzuları üzrə sosial reklamların yayımlanmasının təşkil edilməsi və "online" tədris proqramlarının hazırlanması nəzərdə tutulmuşdur. |
| 22. | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi, dövlət orqanları tərəfindən Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasına məsul şəxslərin müəyyən edilməsi (11.1) | İqtisadiyyat Nazirliyində "İş planları və vacib tapşırıqların icrasına nəzarət sistemi (icra-mb)" yaradılaraq 2015-ci ildən istifadəyə verilmişdir. Bununla əlaqədar, 2016-cı ildə Fəaliyyət Planında nəzərdə tutulmuş, İqtisadiyyat Nazirliyinin icraçı olduğu tədbirlərin hər bir bəndinin icrasına məsul şəxslər müəyyən edilərək, əmrlə təsdiqlənmişdir. Hal-hazırda mütəmadi olaraq sistemdə təkmilləşdirmə işləri aparılır. Qurumun Daxili nəzarət şöbəsi tərəfindən Sərəncamın icrasına nəzarət mütamadi şəkildə sistem üzərindən elektron qaydada aparılmaqdadır. |
| 23. | Dövlət orqanlarının daxili nəzarət qurumları ilə | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən Dövlət orqanlarının daxili nəzarət qurumları ilə məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili məqsədilə elektron məlumat sisteminin |

| | | |
|---|---|---|
| | korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili (11.2.) | yaradılması üzərində iş aparılmaqdadır. Hazırda sistemin yaradılması üzərində texniki-təşkilati işlər aparılır. Sistem tam hazır olduqdan sonra, dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında sistem üzərindən məlumat mübadilə və əlaqələndirmə işləri tam elektronlaşdırılacaqdır. |
| 24. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi (11.5.) | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət orqanlarının fəaliyyətində ictimai nəzarətin təmin olunmasına dair verdiyi tapşırığa uyğun olaraq, cari ilin aprelin 6-da Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə QHT rəhbərləri arasında işgüzar görüş keçirilmiş, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuş və gələcək əməkdaşlıq perspektivlərinə birgə baxılması üzrə təkliflər bildirilmişdir. Görüşdə iqtisadi sahədə fəaliyyət göstərən 20-dək ictimai birliyin rəhbərləri iştirak etmişdir.<br>Qarşılıqlı dialoq formatında keçirilmiş tədbirdə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin icrası ilə bağlı fikir mübadiləsi aparılmış, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi qeyd edilmişdir.<br>Tədbirin iştirakçıları tərəfindən iqtisadi fəallığın artırılması, sahibkarlığın və biznes mühitinin inkişafı, istehlakçı hüquqlarının qorunması, ticarət qaydalarının təkmilləşdirilməsi, istehlak kreditləri, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, maarifləndirmə tədbirlərində ictimai birliklərin iştirakı və s. istiqamətlərdə təkliflər səsləndirilmiş və geniş müzakirələr aparılmış, vətəndaşlarla dövlət qurumları arasında əlaqələrin inkişafına və dərinləşməsinə ictimai nəzarətin təşkilində ictimai birliklərin rolunun artırılmasının əhəmiyyəti vurğulanmışdır.<br>Bununla yanaşı, hazırda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası arasında ictimai nəzarətin təşkili sahəsində əməkdaşlıqla bağlı hüquqi məsələlərin tənzimlənməsi məqsədilə |

| | | |
|---|---|---|
| | | Anlaşma Memorandumunun layihəsi hazırlanmış və bu sahədə funksional fəaliyyət istiqamətləri üzrə qarşılıqlı əməkdaşlıq nəzərdə tutulmuşdur |
| 25. | Açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyəti və qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğuların, araşdırmaların keçirilməsi və nəticələrinin elan edilməsi (11.6.) | Açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyətinin İqtisadiyyat Nazirliyi üzrə qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğunun keçirilməsi məqsədi ilə araşdırmalar aparılmış və ixtisaslaşmış sorğunun həyata keçirilməsi üçün hazırlıq işləri yekunlaşdırılmışdır. Aparılmış araşdırmalara və hazırlıq işlərinə uyğun olaraq, 2017-ci ildən açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin İqtisadiyyat Nazirliyi üzrə icra vəziyyətinə dair ixtisaslaşmış sorğular keçiriləcəkdir. |